«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 29 oktyabr (çərşənbə axşamı günü) tarixli XXV nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

AZƏRBAYCAN

Səşənbə, 22 məhərrəmülhəram sənə 1337. 29 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə: Bakı, Kolyubakinskaya küçədə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

TELEQRAF XƏBƏRLƏRİ

25 təşrini-əvvəl [oktyabr] 34 tarixli Osmanlı Qərargahi-ümumisindən təbliğ olunmuşdur:

1) Fələstin cəbhəsində ufaq-təfək kəşf qitəatı müsadiməsi [kəşfiyyat qruplarının çarpışması] oldu.

2) Digər cəbhələrdə yeni bir şey olmadı.

Milli Ajans, 24-10-34

- Fransız sosialist rüəsasından [liderlərindən] Samba, yazdığı məqalədə alman ordusunun hərb etməyə müqtədir olduğunu və Etilaf ordularının qeyrətinə [səylərinə] rəğmən alman ordusu cəbhəsinin yarılmasına müvəffəqiyyəti-hal olmadığını [hazırda müvəffəq olunmadığını] yazır.

- İtalyan sosialistlərindən Bazil, alman ordusunun qısalmış hərb cəbhəsinin arxasında uzun müddət müqavimət edə biləcəyini yazır.

- Alman Baş Vəkili [Baş Naziri] Reyxstaq məclisində bəyan etmişdir ki, bütün cahanda bir mücadileyi-əfkar [fikirlərin mübarizəsi] başlamışdır: bir tərəfdən Almaniyanı imha [məhv] etmək hissləri, digər tərəfdən millətimizə qarşı qüvveyi-cəbriyyə istemal etməksizin [güc tətbiq etmədən] ixtiyari bir etilaf [razılaşma] ilə sülhü təmin etmək. Bunlardan hangisinin qüvvətli olduğu mühəqqəq [qəti] surətdə söylənəmməz.

Vilsonun yeni notasında bu xüsusu da qəti surətdə izah edəcəyi möhtəməldir [ehtimal olunandır]. Biz hər iki ehtimala qarşı hazırlanmalıyız. Bu ehtimallardan biri düşmənin sülh istəməməsidir. Bu təqdirdə alman hökuməti sülh məsələsində millət namindən [adından] söylədiyi kimi, müdafieyi-milliyyəni [milli müdafiəni], səlahiyyəti nisbətində təmin edəcəkdir. Digəri xəsmlərin [düşmənlərin] sülh istəməsidir. Bu təqdirdə millət koru-koruna [kor-koranə] sülh təmayüllərinə sövq edilməməlidir. Almaniyanın sülh haqqında əta eylədiyi cavabi nota [cavab notası] Amerikaya vürud etmişdir [çatmışdır].

Bakı, 28-10-34

26 təşrini-əvvəl 334 tarixli Osmanlı Qərargahi-ümumisindən təbliğ olunmuşdur.

1) Fələstin cəbhəsində dümdar [arxa birliklər; aryerqard] müharibələri olmaqdadır.

2) Sair cəbhələrdə şayani-əhəmiyyət [əhəmiyyətli] bir təbəddül [dəyişiklik] yoxdur.

Milli Ajans, 25-10-34

- İspaniya kabinəsi [Nazirlər Kabineti] istefa etmişdir.

- Kiyevdə Krımın Ukrayna ilə ittihadı [birləşməsi] məsələsi mövzui bəhs [mübahisə mövzusu] olmaqdadır. Ukrayna Hökuməti Krımın vase [geniş] muxtariyyət əsası üzərinə Ukrayna ilə ittihadına tərəfdar, Krım heyəti-mürəxxəsəsi [nümayəndələri] isə vase muxtariyyət mühafizə edilmək şərtilə hökuməti-müttəfiqə [federativ hökumət] halında ittihad arzusundadır.

- İngiltərə Hökuməti ümumi müahidə müzakirati-möhtəmələsinə [ümumi saziş haqqında gözlənilən müzakirəyə] iştirak etmək üzrə iki admiral, iki generaldan mütəşəkkil bir heyəti-mürəxxəsə [nümayəndə heyəti] təyin etmiş imiş.

- İtaliyada nəşr olunan "Populer" qəzetəsi sülh məsələsindən bəhslə yazır ki, Vilsonun mətbuatımızın təsiratına qapılmamasını təmənni [arzu] edirəm. Əks-təqdirdə növi-bəşər [bəşəriyyət] kamilən məhv oluncaya qədər hərb davam edəcəkdir.

SÜLH ƏTRAFINDA

Sülh haqqında İtaliya fəhlələri

Romada vaqe olmuş fəhlələr komitəsi ictimaında [yığıncağında] fəhlələr ilə hökuməti barışdırmaq üçün ziyadəsincə təlaş edilmiş, fayda verməmişdir. Fəhlələr müharibə və indiki siyasətin əleyhindədirlər.

Sülh haqqında Belçika

Belçika Maarif naziri Xenklis, Kral Albertə bir məktub yazıb xalq namindən [adından] sülh əqd etməyi [bağlamağı] tövsiyə etmişdir. Xenklis məktubunda Almaniya Sədrəzəminin [Baş Nazirinin] Reyxstaqda söylədiyi nitqini müzakirə, sülh əleyhinə olanları təkdir edərək [pisləyərək] deyir ki, Belçika müharibəni davam etdirməkdən acizdir. Binaileyh [ona görə] Kral Albert, qraf Hertlinqin sülh təklifini nəzəri-etibara almalı və ona əhəmiyyət verməlidir.

Almaniya fəhlələri miyanında [arasında]

Almaniya fəhlələrinin mürəvvici-əfkarı [mətbuat orqanı; fikirlərini yayan] yazır:

"Biz sülh tərəfdarıyız, fəqət öylə təsəvvür edilməsin ki, biz düşmənlər boyunduruğu altına keçmək istəyiriz. Almaniya böylə sülhü heç vaxt əqd edəmməz [bağlaya bilməz]. Biz vətənimizi mühafizə etməkdən ötrü ən böyük fədakarlıqlara hazırız. Bizim arzu və tələblərimiz, hökumətimiz[in] iqtisadi tələbatına zidd deyildir. Biz elam ediriz [bildiririk] ki, beş illik müharibədə iştirak etdiyimizə baxmayaraq, yenə də düşmən qarşısında dayanmağa hazırız.

Vyanada

Vyanadakı Almaniya mürəxxəsi [nümayəndəsi] xəbər verir ki, bu vaxtadək müşahidə olunan ruh sönüklüyü yüksəkliyə mübəddəl olur [ruh yüksəkliyi ilə əvəzlənir]. Vyanada Vilsona inanırlar, bu da Almaniya-Avstriya ittifaqına köməkdir. Macarıstan Parlamanında Tisa, Vilson maddələri üzərində əsaslanmış sülhü təsvib etmişdir [bəyənmişdir].

TÜRKİYƏDƏ

Osmanlı Mətbuat kooperativ şirkəti

Müntəsibini-mətbuatın [mətbuat nümayəndələrinin] təhvini-ehtiyacına [ehtiyaclarının yüngülləşdirilməsinə] mədar [mərkəz, əsas] olmaq üzrə iki sənə müddətli və "Osmanlı Mətbuat kooperativ şirkəti" ünvanlı xüsusi bir şirkət təşəkkül etmişdir.

Şirkətin sərmayəsi, bəhər [hər bir] hissəsi nama mühərrər [qeydə alınmış səhm şəklində] 6 lirədən ibarət olmaq üzrə 6 min lirə olacaqdır.

Hissə bədəlatı [dəyəri] şəhri yüzər quruş [aylıq 100 quruş] taksitlə [hissələrlə] altı ayda tədiyə olunacaqdır [ödəniləcəkdir]. Şirkətə əlyövm [hal-hazırda] qəzetələrdə, məcmuə və risalələrdə bilfeil [həqiqətən, əməli olaraq] çalışan və mətbəələrdə məmur və müstəxdəm [xidmətçi] bulunan kimsə hissədar ola biləcəkdir.

Şirkət hissədaran heyəti-ümumiyyəsinin [payçıların ümumi heyətinin] ictimaına [iclasına] qədər müvəqqət bir heyət tərəfindən idarə olunacaqdır. Heyəti-müvəqqətə [müvəqqəti heyət] Cəlaləddin Muxtar, Yunis Nadi, Kazım Şinasi, Əhməd Sabiq, Ənis Təhsin bəylərlə, Marqrits əfəndidən mürəkkəb olacaqdır. Şirkətin iqamətgahi qanunisi [qanuni ünvanı] Osmanlı Mətbuat Cəmiyyətinin mərkəz idarəsidir. Əlyövm [hal-hazırda] qeyd müamiləsi [qeydiyyat işləri] Əhməd Sabiq bəy tərəfindən icra edilməkdədir.

Həyatın fövqəladə müzayiqəli [çətin] bir dövrə girdiyi böylə bir zamanda, mətbuat müntəsibininin [nümayəndələrinin] böylə xüsusi bir kooperativ şirkəti təşkil edərək bizzat [şəxsən] təhvini-ehtiyaclarına [ehtiyaclarını yüngülləşdirməyə] sərfi-qeyrət etmələri [səy göstərmələri] ciddən [həqiqətən] şayani-məmnuniyyətdir [məmnuniyyətə layiqdir]. Kooperativ şirkətinin bir an əvvəl təşəkkül edərək xeyirli və faydalı işlər görməsini təmənni [arzu] edir, bütün müntəsibini-mətbuatın [mətbuat nümayəndələrinin] şirkətə talib olmağa şitab edəcəklərini [tələsəcəklərini] mühəqqəq əddəyləriz [mütləq hesab edirik].

Osmanlı marşı

Zati-şövkətməabi həzrət-padişahinin və bilcümlə əzayi-xanədani səltənəti-səniyyələrinin cəddi-ələləri cənnətməkan Sultan Mahmud xani-sani həzrətləri tərəfindan nizami-cədidi-əsgəriyyənin hini-ehdasında [quruluşu əsnasında] ilk dəfə olaraq qəbul buyurulmuş olan və məhəreyi-musiqişünasandan [musiqişünasların mahirlərindən] Donizettinin asari-məşhurəsindən [məşhur əsərlərindən] bulunan marşın bədəzin [bundan sonra] surəti-daimədə [daimi surətdə] Osmanlı Marşı olaraq qəbulu şərəf-sadir olan iradəsinə icabi-alisindən bulunmuş [ali zərurət olaraq görülmüş] və hökmi-münbəği [layiqli hökm] məqami-sədarətdən [Baş Nazirlikdən] iqtiza edən [lazım gələn] dəvairə [dairələrə, qurumlara] təbliğ edilmişdir.

PROFESSOR TSUQMAYER İLƏ MÜSAHİBƏ

Almaniya Hökumətinin məlumat şöbəsi müdiri Tsuqmayer, Tiflis qəzetələri müxbirləri ilə etdikləri müsahibəsində professor demişdir:

- Almaniya Hökumətinin İstanbul mürəxxəsliyi [nümayəndəliyi] teleqrafən [teleqraf vasitəsilə] Qafqaziyadakı Almaniya heyətinə xəbər vermişdir ki, hökumət dəyişməsi sakitliklə keçmişdir.

Trakya hüdudunda sakitlikdir. Düşmənin Türkiyə torpağına keçməsi görülməmişdir. Burada güclü türk qüvvəsi vardır ki, Etilafçılar hücumunu hər dəqiqədə dəf etməyə qadirdir.

İstanbulun işğal edilmək şayiatı [şayiələri] ən adi bir yalandan ibarətdir. Dardaneldə gördükləri məğlubiyyəti ingilis-firənglər təcdid edəmməzlər [bərpa edə bilməzlər, kompensasiya edə bilməzlər]. Türkiyə başqa mərkəzi dövlətlər kimi sülh tərəfdarıdır.

Vilson axırıncı notasında Almaniyadan tələb etmişdir ki, "qara və sudakı dəhşətinə" xitam versin. Bundan dolayı Almaniya Hökuməti sualtı qayıqlarına əmr vermişdir ki, sərnişin vaporlarını qərq etməsinlər, fəqət əlbəttə ki, Etilaf Hökuməti bundan istifadə etməməlidirlər.

"Qara dəhşətinə" gəldikdə, Almaniya dəfələrlə göstərmişdir ki, Fransa şəhərləri Almaniya tərəfindən deyil, firəng-ingilis topларından xaraba qalır. Bu məsələni Çörçil özü də etiraf edir ki, ingilis topları hər gün 100.000 tondan ziyadə mərmi atırlar. Həqiqəti sübut etməkdən ötrü Almaniya Vilsona təklif etmişdir ki, təhqiqdən [araşdırmaqdan] ötrü cəbhəyə bir beynəlmiləl komisyon göndərilsin. Brükseldəki [Brüsseldəki] bitərəf dövlətlər nümayəndəsi cəbhəyə bir komisyon göndərmişdir.

QƏZETƏLƏRDƏN

Amerika tədhiş [terror] əleyhinə

"Loqal A." qəzetəsinə Laheydən [Haaqadan] teleqraf edirlər ki: "Vaşinqtondan alınan xəbərlərə görə, Amerika Hökuməti əcnəbi məmləkətlərdə olan öz siyasi nümayəndələrinə təminnamələr [yazılı göstərişlər] göndərib, bütün bitərəf dövlətlərə müraciətlə bolşeviklər tərəfindən yayılan dəhşət və zülmkarlıq əleyhinə müttəhidən [birgə] etiraz etmək lüzumunu bildirmişdir. Amerika Hökuməti bolşeviklərin etdikləri işləri qarşısında bütün cahan mədəniyyətinin onlara nə tövr nifrətlə baxdığını bolşeviklərə andırmaq üçün bir yerdə hərəkət etmək arzusundadır. Amerika Hökumətinin zənninə görə bu təklif bolşeviklərcə məznun olan [şübhələnilən; təqsirləndirilən] Fransa və İngiltərə dövlətlərindən olmayıb, ancaq Amerika Hökuməti tərəfindən edilməlidir.

Vilson və Lehistan [Polşa]

Varşavadan "L." qəzetəsinə teleqraf edirlər ki: Lehistan Şurası tərəfindən leh millətinə xitabən bir müraciətnamə buraxaraq orada qeyd edilir ki: Leh millətinin əqidə və ixtiyarı bu saatda aşkar, qəti və müttəhid [vahid] olmalıdır. Vilson tərəfindən təklif edilib də halhazırda bütün yer üzü millətlərinin bir yerdə yaşayacaqları təzə həyat və təzə təşkilat əsasından ibarət sülh şəraiti göstərildikdən sonra məzkur [adıçəkilən] müraciətnamədə deyilir ki: "Vilson tərəfindən Lehistan haqqında təklif edilən əsaslar mövcibincə [əsaslara uyğun olaraq] Lehistan Hökuməti dənizə çıxmaqla siyasi və iqtisadi cəhətlərdən müstəqil və bütün Lehistan torpağından ibarət olmaqla beynəlmiləl müahidənamə [müqavilə] ilə hər bir təcavüzdən təmin [əmin] edilməlidir. Bu əsasların feilən icrası üçün leh milləti təni-vahid [hamı bir nəfər] kimi qalxıb öz ixtiyarının anladılması və bütün Şura tərəfindən etiraf edilməsi üçün bütün qüvvəsini cəm etməlidir. Buna binaən [görə] biz qərara aldıq ki:

1 - Hökumət Şurası buraxılsın.

2 - Tezliklə hər cür siyasi cərəyan və əhalinin geniş dairələri nümayəndələrindən ibarət təzə hökumət təşkil edilsin.

3 - Bu hökumətə həvalə edilməlidir ki, Lehistan Seyminin geniş demokrat [xalq] dairələrinə istinad etməsi üçün bütün Lehistan firqələri nümayəndələri ilə bərabər seçki qanunları hazırlasın və bu seçki qanununu ən geci bir ay müddətində təsdiq və elan edilməkdən ötrü Şuraya təqdim etsin.

4 - Bunu mütəaqib [bunun ardınca] bilavasitə Seym dəvət edilib ali hökumət heyəti təşkili ona tapşırılsın.

Bolşeviklərin qalibiyyəti

Tiflis qəzetələrinin yazdığına görə, Simbirsk şəhəri bolşeviklər tərəfindən zəbt edilən gün dörd saat müddətində səkkiz yüz nəfər burjua və ziyalı güllələnmişdir. Penza, Ryazan, Tula və Bryansk şəhərlərində tədhiş [terror] fövqəladə bir dərəcəyə varmışdır. Bu şəhərlərdə ziyalılar, tacirlər və zabitlər tamamilə tələf edilmişlərdir.

Petroqradda

"F. qazeta"ya xəbər verirlər ki: Petroqrad həbsxanaları müdiriyyəti tərəfindən rəsmi surətdə verilən məlumata görə, bu axır günlər zərfində iki mindən ziyadə adam qətl edilmişdir. Qətlə məhkum olanlar Petropavlovsk qalası yanında güllələnib oradaca dəfn edilmişlərdir.

RUSİYANIN YENİ HÖKUMƏTİ

Petrovsk telsiz teleqraf mövqifindən [radiostansiyasından] xəbər verilir ki, eylülün [sentyabrın] 23-ündə Ufadakı Dövlət Şurası beş nəfərdən ibarət bir hökumət intixab etmişdir: Sədr Avksentyev, Voloqodski, Çaykovski, Astrov, Baş komandan general Boldırev.

Məclisi-Müəssisan [Təsisçilər Məclisi] üzvlərinin müşavirəsi Məclisi-Müəssisan dəvətini yanvarın birinə qərar qoymuşlardır. Hökumət dövlət qulluqçularından rica edir yerlərini bildirsinlər. Rusiya mürəxxəsləri [nümayəndələri], məsələn İtaliya mürəxxəsi [nümayəndəsi] hökumətlə müxabirəyə [xəbərləşməyə] başlamışdır. Müttəfiqlər yeni Müvəqqəti Hökuməti təhniyət [təbrik] edirlər. İngiltərə xüsusi müvəkkili Eliot, Ufaya gəlmişdir.

"Mən Ufanı İrandakı əhvalımızdan xəbərdar etməyə çalışacağam." Minorski.

Ümumi Rusiya Müvəqqəti Hökumətinin şəxsi üzvlüyünə Zenzinov, Arqunov, Sapojnikov, Vinoqradov və general Alekseyev təyin edilmişlər. Alekseyev təşrini-əvvəlin [oktyabrın] 10-unda vəfat etdikdə, Könüllü ordu komandanlığına Denikini təyin etmişdir. Müvəqqəti Hökumət, ümumiyyətlə, müşavirədə təyin edilmişdir. İşbu müşavirədə müsəlmanlar da iştirak etmişlər.

"Hökumət Məclisi-Müəssisan indində [qarşısında] məsuldur. Hökumət Rusiya məmləkətinin federasiya əsası üzrə bina tapacağı barəsində bir müraciətnamə buraxmışdır." Minorski.

Əmr oxunduqdan sonra bir komisyon intixab edilmişdir [seçilmişdir] ki, müşavirənin ümumi qətnamələrini və bəyanatını təhqiq etsin. İşbu komisyonun iki günlük işləri nəticəsində üzvlər miyanında [arasında] etilaf [razılaşma] əmələ gələ bilmişdir. İclas davam edir.

"Voljskoye slovo" qəzetəsinin məlumatına görə, müşavirədə ən qəvi [güclü] firqə Məclisi-Müəssisan üzvləridir. Firqəçilik hələlik görülmür, fəqət inqilabçılar güclü fraksiya təşkil edirlər. Tez-tez fraksiya iclasları təyin edirlər. Bir çox millətlər nümayəndələri də iştirak edirlər: başqırd, qırğız, tatarlar və qazax nümayəndələri də vardır.

NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Çinovniklərin məvacibi

Təşrini-əvvəlin [oktyabrın] 26-sında vaqe olmuş hökumət iclasında qət edilmişdir: Azərbaycan Hökumətinin vüruduna [gəlişinə] kimi sabiqki hökumətlərdən məvacib almamış olan məmurlara eylülün [sentyabrın] 15-indən məvacib verilsin.

Bakı pulu

Hökumət qət etmişdir ki, neft satıldıqda bədəl olaraq fəqət [sadəcə] Bakı pulu qəbul edilsin.

Siyasi etilaf [razılaşma]

Azərbaycan Hökuməti ilə Müttəhid [Birləşmiş] Dağıstan Cümhuriyyəti nümayəndələri hal-hazırda iki hökumət arasında hüsula [əmələ] gəlmiş olan siyasi etilafın təfsilatını tərtib və təyin edirlər.

DAXİLİYYƏ NAZİRİ HƏZRƏTLƏRİ İLƏ MÜLAQAT [SÖHBƏT]

Keçən gün Daxiliyyə nazirini ziyarət edib, məmləkətin idarəsini islah xüsusunda olan düşüncələrini və xüsusi nəzəriyyələrini sordum. Aldığım cavabları, verdiyim suallarla bərabər qarelərə [oxucuulara] təqdim edirəm.

Sual - Daxiliyyə Nəzarəti [Daxili İşlər Nazirliyi] və nəzarətə aid dəvairin [dairələrin] milliləşdirilməsi üçün nə kimi iqdamat olmuşdur [addımlar atılmışdır]?

Cavab - Daxiliyyə Nəzarəti, bütün dairələrini milliləşdirmək üçün hər gün can atmaqdadır. Bütün əhalinin müsəlman olduğu yerlərdə əhali ilə polis dairələri türkcə görüşür, övraq [sənədlər] türkcə yazılır. Belə yerlərdə məsuliyyətli vəzifələr müsəlmanların öhdəsinə həvalə olundu.

Fəqət bizə bu gün beynəlmiləl bir şəkildə görünən şəhərlərdə hökumət məmləkətin qolaylıqla idarəsi üçün dairələri birdən-birə türkləşdirmədi. Hökumət əhalinin dərdini ümumi olaraq kəndi bildiyi bir dildə, kəndi ağzından eşitmək məramında bulundu. Məlum ya, əgər biz yalnız türk dilində görüşsəydik, çabuq yetişmək istədiyimiz məqsədə doğru olan yolumuz iki qat uzayacaqdı. Halbuki, görürsünüz, itiriləcək bir dəqiqəmiz belə yoxdur. Onun üçün hökumət ruscanı idarələrdən hələlikdə qovmadı. Bütün dairələrdə məsuliyyətli yerlərin başında müsəlmanlar bulunmaq şərtilə bərabər, rusca da ərzihallar [ərizələr] qəbul edilib, bəyanat dinlənir. Bu gün Azərbaycanda ruscanın istemalı [işlədilməsi], rus lisanını sevdiyimizdən deyil. Hökumət məmləkətin faydasını bunda gördü. Təbiidir ki, bu hal çox davam etməz, bəzi dairələrin mühüm yerlərini işğal edən [tutan] məmurlar türkcə bilməzlərsə, xidmətinə davam etməyəcəkdir. 1-2 ildən sonra Azərbaycan dövlət dairələrini büsbütün milliləşdirilmiş bir şəkildə görəcəksiniz.

Bizim bir çox məmurlarımız vardır ki, - müsəlman, rus və sairə - türkcə bilmirlər. Yerlərini əllərindən qeyb etməmək üçün hər haldə türkcə öyrənməlidirlər. Məmurlar türkcəni öyrənmək üçün hökumət Maarif Nəzarətinə müraciət etdi. Eşitdiyimə görə, bu yaxın günlərdə Maarif Nəzarəti gecə dərsləri tərtib verəcəkdir. Bunun üçün Maarif Nəzarətinə müraciətinizdə daha ətraflı məlumat əldə edə biləcəyinizi zənn edirəm.

Sual - Məmləkətin idarəsində əski təşkilat və təqsimati-mülkiyyəmi [inzibati bölgümü] muhafizə ediləcək, yoxsa bir islahatmı olacaq?

Cavab - Əski təşkilat da, təqsimat da müvəqqətidir. Məmləkəti bütün mənası ilə düşməndən xilas etdiyimiz kimi [etdikdən sonra] bu yolda yeni addımlar atacağız.

Yeni təqsimati-mülkiyyə yapıldığı kimi, təşkilatda da dəyişiklik olacaqdır. Rus üsuli-idarəsinin zərərli nöqtələri büsbütün atılacaq.

Məmurların ünvanları, ümumiyyətlə, Osmanlı ünvanları, qiyafət və apoletlər də [paqonlar da] hakəza [onun kimi] Dövləti-Aliyyənin [Osmanlı dövlətinin] qəbul etmiş olduğu bir tərzdə olacaqdır. Əski apoletlərin şimdiyə qədər istemal edilməsi sırf apolet yapmaq üçün lazım olan malın bulunmadığıdır.

Daxiliyyə naziri həzrətləri məmurini-mülkiyyəyə [mülki məmurlara] məxsus apolet nümunələrini həman göstərib, bu gün bir əldən emal edildiyini buyurdular.

Sual - Bacarıqlı və açıqgözlü polis və jandarma yetişdirmək üçün Nəzarət, xüsusi məktəblər açmaq təşəbbüsündə bulundumu? Məmləkətdə belə məktəblər açılıncaya qədər Osmanlı polis məktəblərindən istifadəyə qərar verildimi?

Cavab - Qabil polis və jandarma yetişdirmək üçün Türkiyədən Azərbaycana hələlik mütəxəssis bir miralay [polkovnik] dəvət etdik. Müşarileyh [adıçəkilən şəxs], açılacaq məktəblərin layihəsini tərtib etməkdədir. Məktəb üçün lazım olan müəyyən miqdarda müəllimlərin yetişdiyi kimi, məktəb açılacaq zənn edərsəm. Bu hər haldə bir aya qədər bitmiş kimi olar.

Daha canlı məlumat kəsb etmək [almaq] üçün Nəzarət İstanbula polis məktəbinə tələbə göndərmək məramındadırsa da, daxili bir çox işlərimiz şimdiyə qədər buna meydan vermədi. Nəzarət Türkiyənin polis məktəblərindən hər haldə istifadə edəcəkdir.

Sual - Azərbaycanda yaşayan müxtəlif millətlərin bir-biri ilə olan əlaqələrini gözəlləştirmək üçün şimdiyə qədər nə kimi iqdamat [təşəbbüslər] olmuşdur? Və istiqbal [gələcək] üçün nə düşünülür?

Cavab - Azərbaycanda yaşayan müxtəlif millətləri bir-biri ilə çarpışdıran çox vaxt hər iki tərəfin müsəlləh [silahlanmış] olması və heç bir tərəfin etimadını qazanmış olan bir hökumətin bulunmamasıdır. Bu fəsad ocağını söndürmək üçün bilafərqi-milliyyət [milliyyət fərqinə baxılmadan] bütün əhalinin silahı toplanacaqdır. Sülh və müsaliməti [əmin-amanlığı] davam etdirməklə bərabər, hər zaman son yardımına qoşan bir hökumətin varlığını hiss edən düşmən millətlər, zənnimə qalarsa, getməkdə olduqları yanlış yoldan dönüb əlaqələrini gözəlləşdirərlər. Hökumətin məramı Azərbaycanda bütün millətləri bir gözdə görməkdir. Bizə qurşun atmayan bir xarici ilə bir müsəlmanın hüququ müsavidir [bərabərdir]. Bunu bizzat təcrübə etdikdən sonra buradakı müxtəlif ənasir [ünsürlər] arasında ticarət rabitələri başlanacaq.

Təbiidir ki, iki qonşu milləti biri-birinə ən çox mehriban edən amillərdən biri də alış-verişdir. Ticarət və Sənaye naziri bulunduğum üçün ayrıca bir gündə ticarət üçün gördüyümüz tədbirlərdən bəhs edərəm.

Sual - İnqilab əsnasında Azərbaycanda törəyən bəy və rəiyyət məsələsi xüsusunda; bəylərin aldığı xəsarət və müqəssirlərin mücazatı [cəzalandırılması] haqqında Daxiliyyə Nəzarəti nasıl davranmaq məramındadır?

Cavab - Məmləkətin hər yerini qaplamış olan anarşi (anarxiya), başsızlıq davam etdikcə, hökumət bir iş görəmməyəcəyi, məlumunuz olsa gərək. Onun üçün hökumət ən əvvəl gücünü anarşini yatırmağa sərf etdi. Hökumətin indiyə qədər həbs etmiş olduğu adamların içində hər sinifdən vardır. Bəy, rəiyyət, ruhani, əmələ [fəhlə], kim olursa olsun, hökumətcə cinayətdə iştirakı aydın olanlar təqib edilməkdədir. Ən aşağısı, böylə canilərin yüzdə doxsanı dərdəst edilmiştir [tutulmuşdur]. Bunların içində Gəncədən bir mülkədar, Qubadan bir molla da vardır.

Məhbusların içində bir də bəzi bəylərin qatilləri varsa da, onlar bəy və köylü, yəni torpaq məsələsi üçün tutulmadı. Onların qəbahəti cinayətdir.

Əskiyeni bütün canilər cəhəti-ədliyyəcə [ədliyyə qurumları tərəfindən] tövqif [həbs] edilməkdə və həpsinin haqqında qanuna müvafiq təhqiqat [araşdırma] yapılmaqdadır. Azərbaycanda idareyi-örfiyyə [hərbi rejim] elanından əvvəl cinayətlə müttəhim olanlar, hökumətin qərarına görə ədliyyə məhkəmələrinə verilir. İdareyi-örfiyyə elanından sonra cinayət işləyənlərin işinə təbii, divani-hərbi-örfi [hərbi məhkəmə] baxacaqdır.

Torpaq məsələsi qayət mühüm bir məsələdir. Hökumətin ən çox diqqətli davranacağı bir məsələ torpaq işləridir. Hökumətin qərarına görə, Ziraət Nəzarəti [Kənd Təsərrüfatı Nazirliyi] tərəfindən bu xüsusda bir layihə tərtib edilməkdədir. Əmlak və Ziraət nazirinin bu layihəsi bu günlərdə Şurayi-Vükəlaya [Nazirlər Kabinetinə] təqdim ediləcəyini güman edirəm.

Sual - İşçiləri, əmələləri himayə qəsdilə bizdə Zəhmət Nəzarəti "Министерство труда" təşkili təsəvvür olundumu?

Cavab - Ayrıca olaraq, bir Zəhmət Nəzarəti təşkil edilməyəcəkdir. "Министерство труда" Ticarət və Sənaye Nəzarətinə həvalə edilmişdir. Nəzarəti-məzkurədə [adı çəkilən Nazirlikdə] bunun üçün xüsusi bir şöbə açılmışdır ki, bunun [haqqında] Ticarət Nəzarətinə aid olacaq söhbətimizdə təfsilat verə bilərəm.

Sual - Məclisi-Müəssisan və intixablar [seçkilər] xüsusunda Daxiliyyə nazirinin xüsusi mülahizəsi nədir?

Cavab - Mərkəzi Milli Şura hökumət təşkilindən sonra altı aydan gec olmamaq şərti ilə Məclisi-Müəssisan dəvət edilməsinə qərar verdi. Azərbaycan o vaxta qədər düşməndən təmizlənəcəyinə ümid bağlandığından böylə qət edildi. Fəqət məmləkəti büsbütün düşməndən xilas edəmmədiyi üçün ola bilər ki, bu müddət bir az da uzansın. Dövlətin paytaxtı fəth edildi. Ancaq torpaqların bir parçası hələ düşmənin əlində bulunmaqdadır. Düşmənin bu torpaqdan təmizlənməsi Məclisi-Müəssisanı təxirə uğratdı. Nə vaxt dəvət ediləcəyini də hələlik söyləmək gücdür.

Komisyonun tərtib edəcəyi layihə hazır olduğu kimi, sizə göstərə bilərəm.

Məclisi-Müəssisanın intixabı [seçilməsi] və sair nizamnaməsini tərtib etmək üçün hökumətin əli ilə bir komisyon təşəkkül etmişdir. Komisyon bu xüsusu ətraflıca nəzərə almışdır.

İntixab üsuluna gəldikdə, deyə bilərəm ki, hökumət əzaları arasında, firqələrdən olsun deyənlər vardır.

Fəqət, mənim xüsusi düşüncəm bu xüsusda böylədir:

Hökumətin pək böyük müşkilat içərisində susdurmuş olduğu coşqun ehtirasları bir daha oyandırmamaq üçün, məmləkətin səlaməti naminə "firqəçiliyi" bir daha ağıza almayalım. Keçən inqilab günlərində firqələrin biri-birinə qarşı olan düşmənanə vəziyyətləri, insanı, onların haqqında çox bədbin etməkdədir. Onsuz da bir çox dərdimiz vardır. Firqəçiliyə də yol verərsək, qorxuram ki, buğda samana qarışsın. Bu mənim xüsusi düşüncəmdir. Komisyon qərarını hələlik bilmirəm.

Sual - Əhali arasında bir çox dedi-qodulara baxılarsa, Azərbaycanda bulunan milli komitələr (xaricilər) qayət sərbəst olaraq, əleyhimizdə propaqandalar yapmaqdadır. Nəzarət belə milli komitələrə bir hüdud təyin etmədimi?

Bu suallar təqdim edildiyi vaxt Daxiliyyə nazirinin bir çox işləri, həm də təcili işləri var idi.

Yığın-yığın işlər arasında lütfən verilən cavablardır:

Cavab - Milli komitələr, sərbəstdir. Hangi millətdən olursa olsun, mənsub olduğu millətin xeyirli işləri və hüsnihalı [vəziyyətini yaxşılaşdırmaq] üçün çalışan komitələr istədikləri qədər fəaliyyətdə buluna bilərlər. Unutmamalı ki, Azərbaycanda idareyi-örfiyyə [hərbi vəziyyət] elan edilmişdir. Siyasətə əl vuran komitələrə, fərdlərə hökumət tərəfindən müsaidə verildiyi yoxdur.

Hökumət, əleyhinə yürüdülən müzirr [zərərli] propaqandalara qarşı çıxmaq üçün lazım olan gücə malikdir.

Xoş keçinmək istəyənlərə qəlbimizdə yer verdik. Siyasi düşmənlərimizə qarşı pək sərt davranacağız. Böylə günlərin məntiqi də zənnimcə budur.

Hökumət əzaları [üzvləri] arasında bu xüsusda sağlam bir birlik vardır.

Çalışqan və gənc nazirimizin hüzurunda bu qədər qala bildim. Müsaidəsini alıb, vidalaşdım. Sıx-sıx görüşməmizi arzu etdilər.

Cavad

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 29 oktyabr (çərşənbə axşamı günü) tarixli XXV nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Çocuq şeirləri

MƏKTƏB ŞƏRQİSİ

Günəş doğdu, günəş doğdu,
Ortalığı nura boğdu.
Oyan çocuq, oyan çocuq,
Çəkəcəksin əlbət zorluq!

Qaç aydır həp evdə qaldın,
Sazdan düdük yapıb çaldın.
Yamacların dərələri,
Ağaçların kölgələri
Həm ruhunu əyləndirdi,
Həm başını dinləndirdi.

Fəqət şimdi nərdə o yaz,
Rüzgarlarla sallanan saz!
Mavi dəniz, bəyaz sandal,
Şişkin yelkən, incə qaval,
Dərdli çoban, sakin sürü!
Haydı, artıq dərsə yürü.

Xəzan oldu, xəzan oldu,
Yapraqlar da artıq soldu.
Bahar şimdi məktəblərdə,
Dolaşma sən başqa yerdə.

Ruşən Əşrəf
İstanbul, 1916

RUŞƏN ƏŞRƏF VƏ RUŞƏNİ BƏYLƏRİN KONFRANSI

Bir an əvvəl qəzetələrdə xəbər verildiyi kimi, cümə gecəsi ədəbi və siyasi bir konfrans verildi. Konfrans balada [yuxarıda] isimləri yazılmış bəylər miyanında [arasında], haqqında məlumat verəcəkləri mövzu təbiət və nəzəriyyətcə adətən təqsim edilmiş [bölünmüş] kimi idi.

Konfranslar türk ədəbiyyat və lisanı ilə türk gəncləri arasındakı cərəyani-əfkara [fikir cərəyanlarına] dair olacaqdı.

Birinci hissəni İstanbul darülmüəllimini-aliyyəsi [ali pedaqoji məktəbi] müəllimlərindən, "Yeni gün" qəzetəsi mühərrirlərindən Ruşən Əşrəf bəy öhdəsinə götürmüşdü. Böylə də oldu: Həp ictimaiyyat və siyasiyyatı [ictimai-siyasi mövzuları], ardınca gələcək mühazirəçiyə buraxdı. Ümumun anlayacağı sadə və səlis bir lisanla Osmanlı tarixi-ədəbiyyatından [ədəbiyyat tarixindən] bəhs edən müxtəsər mühazirəsi hazırlıqsızın, bütün timsal və təşbehatındakı [təşbehlərindəki] gözəlliyi səhnədə özü-özündən doğurdu. Bir same [dinləyici], aldığı bir mühazirənin bir çox gözəlliyi və zinətini deyil, eşitdiyi mövzunun ixtisarən məzmununu meydana gətirməyə çalışmış.

Ruşən Əşrəf bəy cənabları başladılar:

Möhtərəm xanım əfəndilər və bəy əfəndilər!

Əvvəla Allaha şükr edirəm ki, Bakını müstəqil bir türk və müsəlman paytaxtı olaraq gördüm. Bir həftədir gözəl şəhərinizdə yaşayıram. Hələ röya görər kimiyəm. Fəqət bu uzaq qardaş diyarlarını da öz məmləkətləri kimi sevən bir neçə fədakar, cəsur, əsl Osmanlı zabiti ilə, Osmanlı əskərimiz milli qüvvətlərinizə yardım gətirərək ikinci Türkiyəni meydana çıxardılar. Bu həqiqət, fəqət röyaya çox bənzəyir. Yeni bir türk və İslam ölkəsi yaratmaq üçün kəndilərini fəda edən, iki milləti birləşdirən orduya təşəkkür etmək mənim üçün bir borcdur. Bakınızda keçirdiyim hər saat mənim üçün unudulmaz bir bəxtiyarlıq olur. Hər İstanbul çocuğu kimi İstanbulu mən də çox sevirəm. Ondan beş gün ayrılsam, onun hər bucağı zehnimdə, ruhumda bir yara kimi acıyır. Balıq suyundan, ciyər nəfəsdən nasıl ayrılmazsa, mənim üçün də İstanbuldan uzaq düşmək belə acı bir şey olur. Nerəyə getsəm İstanbula bənzər bir guşə araram. Onunla ovunaram. Bakıda böylə guşələri çox buldum. Xüsusilə gecələyin bulvarda dolaşarkən uzaq, seyrək elektriklərilə Bibiheybəti görüncə, üzərində Topqapı sarayı duran Sarayburnunu görür kimi oluram. Çırnı qoroda [Qara şəhərə] baxsam, suya əks edən işıqları ilə elə sanıram ki, orada Dolmabağça sarayı durur. Rixtimə [sahilə] çarpan sular, mənə hələ dənizdən, Boğaziçindən uzaqlaşmamışam kimi bir təsir verir. Çox təmənni edirəm ki, Bakı da ikinci bir İstanbul olsun. Zənginliyi ilə Asiya qitəsinin bir tacı olan Bakı, istiqlaliyyəti və fikri ilə də hakim, yeni bir türk mərkəzi olsun. Biz orada, İstanbulda buralarını çox sevdik, çox özlədik. Bizi xoşbəxtliyə götürəcək yolun Azərbaycandan keçəcəyini bilirdik. Buraya qoşmaq həpimizin arzusu idi, arzusudur. Sizə can atan bir çox Osmanlı ziyalıları arasında sizə əvvəla qovuşmaq şərəfini, xoşbəxtliyini Allah mənə nəsib etdi. Onun üçün mən iki dəfə bəxtiyaram. Möhtərəm şair Cavad bəy bugün qəzetədə deyirdi ki, Osmanlı fikir ordusu Azərbaycana qoşmaqda gecikdi. Biz onların əsərlərini əzbərlədik, can evlərimizə soxduq. Onlar bizi aramayırlar. Əziz məsləkdaşım gəncliyə məxsus bir atəşlə, bir həyəcanla, bir əcələ [tələskənlik] ilə söz söylədi, fəqət bunda haqqı vardı. Çünki çox sevən, çox özləyən, çox bəkləyən bir kişi [adam] tələsər. Xüsusilə gənc bir şair olarsa. Halbuki biz həpimiz buralara gəlmək istəriz. Xalidə Ədib xanım keçənlərdə bir müsahibə əsnasında vətəndaşlarınızdan birinə: "Sizin gözəl məmləkətinizdə bir bahar keçirmək, o qardaş ölkələrini görmək, orada çalışmaq mənim çox istədiyim şeydir" deyirdi. Şu halda ürəkləri millət eşqi ilə dolu fədakar qoşunlarımızın pişdarları [öncüləri] qara günlərinizdə sizə şu təpələrdən xilas xəbərini nasıl gətirdilərsə, məni də bu axşam, buranın türklərini öz canları kimi sevən Osmanlı türk gəncliyinin bir pişdarı kimi qəbul edin.

Sizi təmin edirəm ki, Osmanlı türklərinin məndən çox yüksək, çox elmli, çox dəyərli mühərrirləri vardır. Onlar da zaman-zaman sizi görməyə gələcəklər, xeylidir həsrətini çəkdikləri bu qardaş diyarına məmləkətimizin salamlarını, fikirlərini, arzularını gətirəcəklər. O böyüklərimiz buraya gəlincəyə qədər müsaidə verərsəniz, mən sizə bu axşam İstanbulun son fikri cərəyanından, milli ədəbiyyat barəsindəki səyindən bir parça bəhs edəyim.

Çün bugünkü düşüncələrə hangi yoldan gəldiyimizi, o yollarda nələr gördüyümüzü, nə savaşlar etdiyimizi bilmək gərək ki, yeni ədəbiyyat fikri daha yaxşı anlaşılsın.

İştə bundan ötrü sizə qısaca Osmanlı türk ədəbiyyatının həyatını anlatacağam.

(Sonu var)

ORDAN-BURDAN

- Əşi, Allaha and olsun, yol açılan kimi çıxıb gedib ya Rusyətdə, ya zaqranitsada qalıb, bir kərə də üzümü Bakıya çevirməyəcəyəm!

- Balam, nə olubdur?

- Nə olacaqdır? Ustudentlik vaxtımızda bir o qədər yaxşılıq eləmişəm, pulu olmayanda pul vermişəm, neçə kərə teatrolara aparmışam, evimdə yer verib saxlamışam. İndi özü ministr olubdur, mənə deyir ki, gəl səni qubernat təyin eyləyim! Yəni aşağa, aşağa, qatıqlaşdan da aşağa!? Neujeli mən o qədər əskik oldum ki, ancaq qubernatorluğa layiqəm!

- Əfəndim, Nikolay vaxtında min cürə yaltaqlıq, rüşvət, peşkəşdən sonra birimizə pristavlıq veriləndə, elə bilirdik ki, bütün dünya bizə verildi; indi nə oldu ki, qubernatorluq əskik iş oldu!

- Xeyr, mən demirəm ki, qubernatorluq əskik şeydir; siz görünür ki, məni başa düşmədiniz! Mən onu deyirəm ki, indi ki mən sənə ustudentlik vaxtında bir o qədər yaxşılıq eləmişəm, neçə kərə pul da vermişəm və sən mənim yoldaşım idin, bu gün sən ki, pristav olmusan, məni də heç olmasa pamoşnik pristav [pristav köməkçisi] elə! Naçalnik olmusan - pamoşnik naçalnik elə! Qubernat olmusan - pamoşnik qubernat elə! Ministr olmusan - heç olmasa tavariş ministra [nazir müavini] elə! Daha elə olmasın ki, sən olasan ministr - mən nə? - Qubernator! Mən bunu demək istəyirəm!

- A, siz bunu demək istəyirmişsiniz? Elə isə, bu başqa məsələdir! İnşallah yol açılanda çıxıb getməyiniz məsləhətdir.

***

Qadan alım, bircə məni başa sal görüm ministr, yəni nə deməkdir?

- Ministr, yəni vəzir!

- Çox yaxşı, Allah səndən razı olsun. Deməli bizim Xan Xoyski vəzirdir?

- Vəzirdir!

- Əbdüləli bəy də vəzirdir?

- Vəzirdir!

- Bizim Nəsib bəy də vəzirdir?

- Vəzirdir!

- Cavanşir, Hacınski, Aşurov, Məlikaslanov, Sultanov... bunlar da vəzirdirlər?

- Vəzirdirlər!

- Allah sənə ömür versin. Bəs qadan alım, bunlar hansı padişahın vəziridirlər?

Bu sual bir az məni karıxdırdı.

- Necə hansı padişahın?

- Yəni deyirəm, Osmanlı padişahının vəziridirlər?

- Xeyr, Sultan həzrətlərinin öz vəzirləri vardır!

- Rus padişahının?

- Xeyr, indi bizim Rusiya ilə heç bir əlaqəmız yoxdur!

- Bəs hansı padişahın vəziridirlər?

Fikrimi toplayıb dedim:

- Sən padişahın!

Güldü:

- Mən padişah olsaydım baqqallıq eləməzdim!

Dedim:

- Baqqallığın və ya dülgərliyin zərəri yoxdur. Bu saat bu ministrlər hamısı sənin vəzirindirlər!

Dedi:

- Vallah yaxşı başa düşmədim!

Dedim:

- Bax bu vəzirlər Azərbaycan Hökumətinin millət vəzirləridirlər və sən də Azərbaycan Hökumətinin millətisən. Bəs demək bu vəzirlər sənin vəzirlərindirlər! İnşallah elə ki bu tezlikdə millət evimiz (Parlamanımız) açılar, onda baxıb görərsən ki həqiqətən də vəzirlər sənindir! Və bu dəstgah hamısı ondan ötrüdür ki sən bir növ istirahət ilə dolanıb azad çörəyini azadə yeyə biləsən. Ancaq bu azadlığı sənin üçün qan töküb alan türk milləti-nəcibəsindən və türk qəhrəman ordusundan qəflətdə olmayıb onlar haqqında həmişə duagu [dua eləyən, duaçı] olasan. Necə ki, Sədi əleyhirrəhmə [ona rəhmət olsun] buyurubdur:

Əbr o bad o məh o xurşid o fələk
dərkarənd
Ta to nani be kəf ari vo be qəflət
nə xori

Baqqal Kərbəlayi Kərim bu sözləri eşidəndən sonra bir az fikir edib bədəhu [sonra] papağını əyri qoydu və kamali-səmimiyyət ilə:

- Allah qoysa işlərimiz yaxşı olar! - deyib, kefi kök və damağı çağ getdi.

Filankəs

İNAD QURBANLARI

Şəhərimizdə yenə də oğru firqələri baş qaldırırlar. Ötədə-bəridə evləri təftiş, bəzi adamları həbs etmək və təhdidən [qorxudaraq] para almaq kimi cinayətlərə şüru etmişlərdir [başlamışlar]. Nədənsə bir dəfə şu bədbəxtlər bunu qanmaq, etiraf etmək istəməzlər ki, hökumət ilə anarşi [anarxiya], nizam və qanun ilə xudsərlik [özbaşınalıq] və keyfəmayəşa [kefinin istədiyini eləmək] bir yerdə yaşamazlar. Hökumət olan yerdə qanuni-nizam [nizam qanunu], istirahəti-ümumi [ümumi dinclik] bərpa olması təbiidir. Gərək şura-sını hər kəs və baxüsus [xüsusilə] qara fikirli cani və əşqiya firqələri [quldur dəstələri] birdəfəlik etiraf etsinlər ki, "bolşevik", "menşevik", "daşnaksaqan" və sairə dövründə qanun və bəlkə də məsləkə və məqsəd şəklini almış hərc-mərc, əhalinin bir təbəqəsinin malı, canı, irzinamusu başqa bir təbəqəsinə halal ədd [hesab] edilmək zamanı daha keçmişdir. O zamandan ki, şövkətli, əzəmətli hökumətimiz Bakıya gəldi, həqiqi və qanuni bir hökumətin vətənimizdə mövcudiyyətini hər kəs, hər fərd hiss etmişdir, zənnindəyəm. Həyati-yövmiyyəmizin [gündəlik həyatımızın] hər cəhətinə nəzər edilib fikir verilərsə, burası yaxşı anlaşılar, lakin yazıqlar olsun o şəxslərə ki, bu sadə, ufaq və ən açıq məsələni anlamırlar. Şu bədbəxtlər bir dəfə bunu görmürlər ki, hər beş-on gündən bir "Parapet", "Quba meydanı", "Vağzal" və ya sair izdihamlı yerlərdə hökumət qərarı ilə boğazlananların [edam edilənlərin] həpsi onların həmkarı, həmməsləki və həmfikridirlər. Bu boğazlananlar "kontrrevolyusioner" [əks-inqilabçı] və ya başqa bir bu kimi əfsanələr ucundan asılmayıb, ancaq istirahəti-ümumiyyəni pozmaq, əhalinin asayişini xələldar etmək kimi təqsir və günahları üçün boğazlanmışdır. Hər bir ağılsız, kim olursa olsun, bu vaxta kimi daha bunu dərk etməlidir ki, hökumətimiz birdəfəlik vətənimizdə nizam və qanun bərpa etmək qəsdində olub, həp bu fikir ilə çalışmaqdadır. Srağa gün sabahdan şəhərimizdə mütəəddid [bir çox] nöqtədə bir neçə adam edam cəzasına məhkum edilərək asılmışdı. Bunlar həpsi təhdidlə pul almaq, evlərdə təhərriyat [axtarış] yapıb adamlar həbs etmək və qətl kimi cinayətlər üstündə fövt olanlardır [ölüb gedənlərdir].

Bir gün irəli şu canilərin edam ediləcək xəbərini bizə söyləyən Azərbaycan Polis Müfəttişi-ümumisi [Polis Baş müfəttişi] Bəhaəddin bəy əfəndi hökumətin şu xüsusdakı əmrini bəyanla, bunu da ilavə etdi ki, əhali birdəfəlik bunu anlamalıdır ki, hər bir müsəlmanın canı, malı, şəxsi heysiyyəti hökumətimiz ricalı [adamları] tərəfindən mühafizə və təmin edilən kimi, bilafərqi din, məzhəb və hüviyyət [din, məzhəb və şəxsiyyət fərqi olmadan] başqalarının da canı, malı həmin qərar üzrə hökumət indində [nəzdində] müsavi [bərabər] olaraq mühafizə ediləcəkdir. Hökumətimiz heç vaxt buna yol verməyəcək ki, bir firqə başqasına, bir təbəqə qeyrisinə və yaxud bir millət ötəki bir millətə qələbə [üstünlük] edib, zülm və güclülük göstərsin. Hökumət indində hamı müsaviül-hüquqdur [bərabərhüquqludur].

Hamıdan artıq böyük günah budur ki, mərqum [yuxarıda deyilən] canilər həpsi əsgər və ya polis nəfəratı [nəfərləri] libasını taqınıb da [geyib də] öz əfali-şəniələrinə [biabırçı hərəkətlərinə] mübaşir olurlar [girişirlər]. Daima bizə şikayət gəlir ki, İslam Ordusu əsgərləri ötədəbəridə xudsəranə [özbaşına] təhərriyat [axtarış] yapıb, insanları həbs edib "ştaba" və yaxud müfəttişliyə, daha bilməm nerələrə aparırlar. Həp bu şikayətlər xüsusunda təftişatda bulunub, istintaq cari edildikdə [aparıldıqda] anlaşılır ki, canilər və xırsızlar [oğrular] əsla əsgər olmayıb, sabiqlərdən [keçmişdən] bəri Bakıda sənətkar olan xırsızlar, quldurlardır ki, bu dəfə əsgər qiyafəsinə girərək öz əfali-qəbihələrinə [qəbahətli əməllərinə] şüru etmişlər [girişmişlər].

Müfəttişlikdə alınan xəbərlərdən anlaşılmış, cümlə xırsızlar və canilər qaliba əsgər libasında olub da, arxalarında silah belə daşıyırlar.

Bunun üçündür ki, asılanlar həpsi zahirən türk əsgəri libasında olub da, amma həqiqəti-halda [əslində] Bakının budala [sərsəri] və xırsızlarıdırlar.

Məhəmməd Sadiq

BAKI XƏBƏRLƏRİ

- Maarif Nəzarəti [Maarif Nazirliyi] bütün edadi, ali-ibtidai və ibtidai məktəblərin nazir [müfəttiş] və müdirlərindən təcili surətdə dərs kitablarının və məktəbə lazım olacaq dəftər və başqa yazı ləvazimatının miqdarı barəsində məlumat istəmişdir.

- Kəsbkarlar İttifaqlarının [Həmkarlar İttifaqları Şurasının] sədri Azərbaycan Hökumətindən Petrovska getmək üçün vəsiqə almışdır. Sədr ora[nın] padişahlıq bankasındakı [dövlət bankındakı] İttifaq pullarını alacaqdır.

- Bakıdakı "Səadət" ruhani məktəbində dərslər yeni qayda üzrə təşrinisaninin [noyabrın] birindən başlayacaqdır. Ərizələr hər gün saat 9-dan 12-yədək qəbul olunur.

- Bələdiyyə İdarəsi Azərbaycan Hökumətinə müraciətən 7 milyon pul istəmişdir. Şəhər Duması Upravanı [Bələdiyyə İdarəsini] vəkil etmişdir ki, Şurayi-Vüzəra [Nazirlər Kabineti] indində [nəzdində] işbu məbləğin verilməsi və yaxud işbu məbləğ miqdarında istiqraz əqdinə [bağlanmasına] izin verilməsi barəsində təşəbbüsatda bulunsun [təşəbbüs etsin]. Uprava hökumətdən pul istəməyi tərcih etmişdir; çünki şəraiti-hazirədən [hazırkı şəraitdən] dolayı daxili və xarici istiqraz bağlamaq mümkün olmayacaqdır. Bütün istiqraz müəssisələri 7 aydan ziyadədir ki, mərkəzlərindən qəti-əlaqə etmişlər [əlaqəni kəsmişlər]. Binaileyh [ona görə] pul və təlimat alammırlar. Xüsusi adamlara gəldikdə, bunların da bütün əmlak və pulları milliləşdirilmiş olduğundan, nəyə malik olacaqları qeyri-müəyyəndir. Bu iş məsələni bir qədər də müşkülləşdirir.

Binaileyh şəhər təsərrüfatını iflasdan saxlamaqdan ötrü yeganə bir çarə hökumətdən pul almaqdır. Uprava bir çox müəssisələr göstərir ki, onlarsız Azərbaycan Hökuməti bir çox məxaricata [xərcə] məruz qalmalıydı: xalq hifzüssihhə [gigiyena] müəssisələri, məktəblər, Şollar su yolu.

Şəhər məxaricatının böyüməsinin səbəbi iki il davam edən hərc-mərclik olmuşdur. Bu vaxt zərfində şəhər mədaxili həddi-əqəllə [minimuma] yetmişdir. Məxaric isə pək artmışdır.

Gürcü Milli Komitəsində

İki həftədir ki, Gürcü Milli Komitəsi gürcüləri öz vətənlərinə göndərir. Bu vaxtadək bir çoxları getmişdir. Bunlardan ötrü Komitə Azərbaycan Hökumətindən vəsiqələr almışdır. Təşrini-əvvəlin [oktyabrın] 16-sında 49 vaqondan ibarət bir tren [qatar] getmişdir ki, 250 nəfər sərnişin aparmışdır. Birinci tren şəhər və mədən dairəsi əhalisindən ibarət idi. Füqəranı [imkansızları] Komitə öz xərci ilə göndərmişdir. Komitə xərci ilə gedənlərin hesabı bu vaxtadək 70-dən ziyadədir. Əlavə olaraq, Komitə bir çox gürcülərə borc pul vermişdir. Birinci tren Komitə sədrinin təhtiidarəsində [rəhbərliyi altında] yola düşmüşdür. Təşrini-əvvəlin 27-sindən Komitə ikinci tren göndərmək təşəbbüsatına düşmüşdür.

ERMƏNİ-GÜRCÜ İXTİLAFI

Dünkü sayımızda təfsilatı verilmiş olan erməni-gürcü ixtilafı münasibətilə "Saxalxo sakme" namlı [adlı] gürcü qəzetəsi bir məqalə nəşr edərək yazır ki:

- Ermənistan Hökuməti öz macəraculuğunu [macərapərəstliyini] bununla haqlı göstərir ki, guya Gürcüstanın cüzilayetəfəkki [ayrılmaz parçası], türklər tərəfindən işğal edilmiş olan ərazini Türkiyə Hökuməti ilə bağlamış olduqları əhdnamə mövcibincə [müqaviləyə uyğun olaraq] öz ərazisi hesab edirmiş.

Biz hələ erməni məhafili [dairələrinin] və erməni diplomatlarının belə bir siyasi xəta işləmələrinə inanmayırız. Ermənistan bu gün rahat yaşayırsa, ermənilər baqi [geridə] qalan qüvvələri ilə sülh konfransınadək yaşayaraq sülh görəcəklərsə, bunlar həp Gürcüstanın təşəbbüsatı [təşəbbüsləri] sayəsində görünür. Ermənilər macərapərəstliyi davam edəcək olarsa, Gürcüstan onun önünü ala biləcək qüvvətə malikdir. Fəqət biz yenə lazım bilir və arzu ediriz, ermənilər birdəfəlik hər dürlü siyasi dolandırıcılıqdan [hiylədən] vaz keçsinlər və bilsinlər ki, gürcülər hüquqca malik olduqları bir şeyi heç vaxt mübarizəsiz kimsəyə verməzlər.

Borçalı qəzasında idareyi-örfiyyəyi-əsgəriyyə [fövqəladə vəziyyət]

Təşrini-əvvəlin [oktyabrın] 23-ündə Gürcüstan Hökuməti tərəfindən əsgəri idarələrə belə bir əmr verilmişdir:

Borçalı qəzasının bir para hissələrində vüqu bulmuş həvadisdən [baş verən hadisələrdən] dolayı Gürcüstan Hökuməti Borçalı qəzası və cənubi dəmiryollarını idareyi-örfiyyəyi-əsgəriyyə altında elan edir.

XARİCİ XƏBƏRLƏR

Hindistanda üsyan

Təşrini-əvvəlin [oktyabrın] 20-sindən Kopenhaqdan [Kopenhagendən] xəbər verilir: Kəlkətə, Mədrəs və başqa Hindistan şəhərlərində onuncu gündür ki, üsyan baş qalxızmışdır.

Nikolay Nikolayeviç sağ imiş

Moskvadan xəbər verirlər ki, edam edilməsi xəbər verilmiş olan Veliki knyaz [Böyük knyaz] Nikolay Nikolayeviç sağdır və Kiyev şəhərindədir.

Alman qoşunlarının getməsi

Almaniya Baş komandanlığının əmrinə görə, Gürcüstandakı alman qoşunlarının nisfi [yarısı] geriyə qayıtmalıdır. Gürcüstan Hökuməti bundan naşi [ötrü] Almaniya Hökuməti ilə müzakirata [müzakirələrə] girişmişdir. Gürcüstan bu qoşunların geri getməsinə razı deyildir. Fon Kress də bu barədə Berlinə teleqram göndərmişdir. Almaniya Hökumətinin cavabı iki-üç gündən sonra alına biləcəkdir. Almaniya siyasi nümayəndəliyi hər halda Gürcüstanda qalacaqdır.

Almanlar ilə Ukrayna

Almaniya və Ukrayna siyasi dəvairi [dairələri] miyanında [arasında] Müttəfiqlərin müvəffəqiyyətindən dolayı soyuqluq müşahidə olunmaqdadır. Kiyevə cəm olmuş qaragüruh ciddi surətdə işləyir. Təmmuz [iyul] ayındakı monarşi [monarxistlər] qurultayında Bezak, Koçubey, Katenindən ibarət bir şura intixab edilmişdir [seçilmişdir].

Şura Ukraynada ocaqlar [təşkilat özəkləri] əmələ gətirir. İşbu cəmiyyətlərin məqsədi Rusiyanı təcdid [bərpa] edərək padişah intixab etməkdir [seçməkdir]. Şuranın hərbi şöbəsi başında Keller, Palitsın, Kantakuzen dururlar.

Monarşi bloku Getmana sollar ilə etdiyi mübarizəsində müavinətdə [yardımda] bulunur. Zamıslovski, Pelikan, Koçubey və gülləbaran edilmiş Şeqlo-vitovun oğlu burada böyük rollar oynayırlar.

Krımda yeni hökumət

Ağməsciddə təşkil edilmiş yeni hökumətə kadetlərdən Krım, Vinaver, Nabokov, inqilabiyyundan Foss daxil olmuşdur.

Elan

Əhli-xibrələr [mütəxəssislər] tərəfindən türkcə və rusca lisanlarında hər cürə ərizələr yazılır və tərcümələr yapılır. Adres: Persidskaya küçə, nömrə 20.

223 3—3

Müsəlman diş təbibəsi Ayna xanım

Malakan bağının qarşısında Zeylidsonun kabinəsində hər gün xəstə qəbul və hər növ diş emal və tədavi [müalicə] edir. Zabitan və əfradın [zabitlərin və əsgərlərin] dişləri əhvən şəraitlə [münasib şərtlərlə] tədavi və emal edilir.

213 12-7

Arvad diş həkimi Moiseyeva-Levin

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişləri müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır.

Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

216 25-5

Diş müalicəxanası
S.M. İtkinin süni diş laboratoriyası

Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Morskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

208 5-4

Arvad diş həkimi Z. A. Şexter xanım

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

215 25-4

İnna lillahi və inna ileyhi raciun

Arvadı, uşaqları, qardaşları (Baba və Əliqulu Zeynalovlar) və yeznələri (Məşhədi Soltan Mustafabəyov, Əbdüləhəd İskəndərov və Məşhədi Səlim Zeynalov) əziz və sevgili İsmayıl Hacı Qəni oğlu Zeynalovun 28 təşrini-əvvəldə [oktyabrda] vəfat etdiyini kamali-hüzn və təhəssürlə [dərin hüzn və kədərlə] qövm-əqrəbalarına və dostaşnalarına xəbər verirlər.

Təşyiyi-cənazə [cənazənin yola salınması] bu gün ayın 29-u səhər saat 9-da Şirvanlı məscidində olacaqdır. Təziyədarlıq [yas mərasimi] Merkuryevski küçə 7 nömrəli evdə xüsusi mülkündə olacaqdır.

Elan

Ərzaq naziri həzrətlərinin binagüzarlığına [sərəncamına] görə, noyabr ayının 2-si səhər saat 10-da Gəncə şəhərində Arakelovun evində həcz [müsadirə] olunmuş və irəlidən qalmış şeylər müzayidə [hərrac, auksion] ilə satılacaqdır. Satılan şeylər bunlardır: fərş [döşəmə əşyası], ipək yaylıq, ipək parça, çit, mis qab, zibilli qənd, yaramaz un, şlanq rezin şinlə, sandalya əqsamı [hissələri], pianino, kəpək, yun, zibilli buğda, kürk, inək və qoyun dərisi, duz və sairə.

Ərzaq nazirinin quberniya vəkili
Katib
206

Bakı Şəhər İdarəsi yeni açılmış çocuq azarxanasına qulluğa dəvət edir:

1) İki həkim (ordinator); 2) Bir həkim (patronaj); 3) İki nəfər müavin.

Ordinator və patronaj həkimlərin məvacibi əsasi 125 manat, imdi isə 550 manat, müavinlərə isə bunun yarısı olacaqdır (məvaciblərə yenidən baxılacaq). Müavinliyə 1914-cü ildən qabaq qurtarmış cavan həkimlər qəbul ediləcəkdir. Növbəçilik hər beş gündəndir. Bu vəzifələri ifa etmək arzusunda olanlar bu barədə noyabrın 15-inə kimi Şəhər İdarəsinin Səhiyyə şöbəsinə ərizə verib sabiqdəki xidmətini bildirməlidir.

Şəhər İdarəsi Səhiyyə şöbəsinin
naziri [müfəttişi]: Şərifov
709

Müdirlər:
Ceyhun bəy Hacıbəyli
Şəfi bəy Rüstəmbəyli

TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

Teleqraf xəbərləri:
Milli Ajans, 24-10-34

"Milli Ajans": Osmanlı Teleqraf Agentliyi nəzərdə tutulur.

"24-10-34": Burada il rumi tarixlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 24 oktyabr 1918-ci ilə uyğundur.

"Alman Baş Vəkili…": burada söhbət, Almaniya İmperiyasının sonuncu Kansleri Maksimilian fon Badendən gedir.

Teleqraf xəbərləri:
Bakı, 28-10-34

"28-10-34": Burada il rumi tarixlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 28 oktyabr 1918-ci ilə uyğundur.

"26 təşrini-əvvəl 334": Burada il rumi tarixlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 26 oktyabr 1918-ci ilə uyğundur.

Teleqraf xəbərləri:
Milli Ajans, 25-10-34

"25-10-34": Burada il rumi tarixlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 25 oktyabr 1918-ci ilə uyğundur.

Türkiyədə:
Osmanlı marşı

"şərəf-sadir olan iradə": padşah tərəfindən verilən fərman.

Rusiyanın yeni hökuməti

"Petrovsk telsiz teleqraf mövqifindən xəbər verilir ki, eylülün…": Qəzetdə "eylülün" yerinə səhvən "iyulun" getmişdir.

"Rusiya mürəxxəsləri, məsələn, İtaliya mürəxxəsi": burada Rusiyanın xarici ölkələrdəki diplomatik nümayəndələri (səfirləri), o cümlədən İtaliyadakı səfiri nəzərdə tutulur.

Nəzarətlərdə:
Bakı pulu

"Bakı pulu": burada söhbət Bakı bonundan gedir.

Daxiliyyə naziri həzrətləri ilə mülaqat

"Ticarət və Sənaye naziri bulunduğum üçün…": Behbud xan Cavanşir o dövrdə həm Daxili İşlər naziri, həm də Ticarət və Sənaye naziri vəzifələrini tutmuşdur.

"Əhali arasında bir çox dedi-qodulara baxılarsa, Azərbaycanda bulunan milli komitələr (xaricilər)…": burada söhbət Azərbaycanda yaşayan azlıqların milli təşkilatlarından gedir.

"Cavad": bu imza Əhməd Cavada məxsusdur.

"Məktəb şərqisi"
şeiri üçün lüğət

saz: qamış
sandal: qayıq
qaval: tütək

Ordan-burdan

"Filankəs": bu imza Üzeyir bəy Hacıbəyliyə məxsusdur.

Gürcü Milli Komitəsində

"Təşrini-əvvəlin 16-sında 49 vaqondan ibarət bir tren getmişdir ki, 250 nəfər sərnişin aparmışdır.": rəqəmlərdə qeyri-dəqiqlik ola bilər; qəzetdə eynən getmişdir.

Xarici xəbərlər:
Almanlar ilə Ukrayna

"Getman": Ukrayna Dövlətinin (İkinci Getmanlıq) başçısı Pavel Skoropadski nəzərdə tutulur.

"Şeqlovitovun oğlu": 1918-ci ildə güllələnən İvan Qriqoryeviç Şeqlovitovun oğlu Konstantin İvanoviç Şeqlovitov nəzərdə tutulur.

Xarici xəbərlər:
Krımda yeni hökumət

"Ağməsciddə təşkil edilmiş yeni hökumətə": 15 noyabr 1918 – aprel 1919-cu il tarixləri arasında mövcud olmuş Krım Regional Hökuməti (İkinci Krım Regional Hökuməti) nəzərdə tutulur.

"İnqilabiyyun": Sosialist İnqilabçılar Partiyası (eserlər) nəzərdə tutulur.

İnna lillahi və inna ileyhi raciun

"İnna lillahi və inna ileyhi raciun": "Həqiqətən, biz Allaha məxsusuq və həqiqətən, Ona qayıdacağıq". Bu ifadə "Quran"ın "Bəqərə" surəsinin 156-cı ayəsinin bir hissəsidir. Ayə belədir: "O kəslər ki, başlarına bir müsibət gəldikdə, həqiqətən, biz Allaha məxsusuq və həqiqətən, Ona qayıdacağıq, deyərlər."

Adsız elan

"Ordinator və patronaj həkimlərin məvacibi əsasi 125 manat…": güman ki, 1250 manat olmalıdır.